***Tibbi mikrobiologiya və immunologiya kafedrasının***

***2016-2017-ci tədris ili üzrə***

***HESABATI***

Hazırki Tibbi mikrobiologiya və immunologiya kafedrasının əsası Bakı Dövlət Universitetinin nəzdində yaranmış Tibb Fakultəsinin fəaliyyətdə olduğu dövrdə qoyulmuşdur və bu fənnin tədrisinə 1922-ci ildə başlanmışdır. O zaman mikrobiologiya fənnindən məşğələləri ümumi patologiya kafedrasının dosenti vəzifəsinə qəbul edilən P.F.Zdrodovski keçirdi. Sərbəst mikrobiologiya kafedrası isə 1926-cı ildə professor vəzifəsinə seçilmiş P.F.Zdrodvskinin rəhbərliyi altında fəaliyyətə başlamışdır.

1930-1932-ci illərdə P.F.Zdrodovskini görkəmli alim L.A.Zilber əvəz etmişdir. 1932-1933-cü illərdə isə kafedraya professor V.A. Barıkin rəhbərlik etmişdir.

Bundan sonra dosent F.A.Yaqubov mikrobiologiya kafedrasına 1933-cü ildən 1971-cı ilə qədər (38 il) rəhbərlik etmişdir.

1971-ci ildə F.A.Yaqubov vəfat etdikdən sonra Mikrobiologiya, virusologiya və immunologiya kafedrasına N.C.Əliyev müdir təyin edilmişdir.

1988-ci ildən etibarən 2003-cü ilədək kafedranın rəhbərliyinə professor H.H.İbrahimov seçilmişdir.

2003-cü ilin sonlarında prof. H.H.İbrahimovun qəflətən vəfatından sonra, yəni 2004-cü ilin yanvarından kafedraya müdir tibb elmləri doktoru, professor Z.Ö.Qarayev seçilmiş və hal-hazırda da kafedraya rəhbərlik edir.



Tibbi mikrobiologiya və immunologiya kafedrası hesabat dövründə aşağıdakı tərkibdə işləmişdir.

1. ***Kafedra müdiri, professor ------------------------------ 1***
2. ***Professorlar ----------------------------------------- 6***
3. ***Dosentlər ----------------------------------------- 9***
4. ***Baş müəllimlər ----------------------------------------- 7***
5. ***Assistentlər ----------------------------------------- 3***
6. ***Baş laborantlar ----------------------------------------- 7***
7. ***Laborantlar --------------------------------------------- 2***
8. ***Baş preparatorlar -------------------------------------- 2***
9. ***Preparatorlar ----------------------------------------- 4***

***Cəmi: ------------------------------------------------- 41 nəfər***

***<u>Kafedranın auditoriya fondu belədir:</u>***

Kafedra bildirir ki, 14 (on dörd) yerlik 12 (on iki) tədris laboratoriya otağımız var. Həmin tədris laboratoriyaları əyanı vəsaitlərlə tam təhciz olunmuşdur. Tələbələrin təcrübə dərslərində müstəqil işləməsi üçün kifayət qədər iş yerləri ayrılmışdır.

Kafedrada 100 yerlik 1 (bir) mühazirə zalı vardır.

Bundan əlavə kafedrada 11 (on bir ) tədris laboratoriyası, 1(bir) rezident otağı, 5 (beş) laboratoriya otağı, 1 (bir) avtoklav otağı, 1 (bir) yuma otağı, 1 (bir) preparator otağı, 1 (bir) laborant otağı, 9 (doqquz) müəllim otağı mövcuddur.

Müəllimlər yüksək səviyyədə təcrübə dərsi aparmaq üçün lazımi əyani vəsaitlərdən istifadə edirlər.



Bir qrupluq birləşməni (potoku) qəbul etmək üçün 2 böyük dərs otağı (8 və 6-cı otaqlar) kompyuterlərlə təhciz olunmuşdur. Məsələn: İctimai səhiyyə, Əczaçılıq və

Stomatologiya fakültəsinin rus bölmələri. Bəzən 2 birləşmə (7-8 qrupluq) eyni saatda gəlir. Belə halda I və IV mərtəbənin mühazirə zallarından istifadə edilir.

Eləcə də, bəzən eyni saatda 11 əvəzinə 12-13, hətta 14 qrup təcrübə məşğələsinə gəlir. Belə olan hallarda kafedranın bakterioloji laboratoriyasında təşkil edilmiş 2 tədris otağından istifadə edirik. Eləcə də rezident otağından.



Kafedrada payız semestrində müalicə fakültəsinin III kurs tələbələri üçün 4 kredit həcmində xüsusi mikrobiologiya (60 saat), İctimai səhiyyə fakültəsinin III kurs tələbələri üçün 5 kredit (75 saat - kliniki mikrobiologiya və sanitar mikrobiologiya), II kurs tələbələri üçün isə 4 kredit həcmində (60 saat) təməl mikrobiologiya, Stomatologiya fakültəsinin II kurs tələbələri üçün 4 kredit həcmində (60 saat), Əczaçılıq fakültəsinin II kurs tələbələri üçün 3 kredit həcmində (45 saat) ümumi mikrobiologiya, hərbi tibb fakültəsinin II kurs tələbələri üçün 4 kredit həcmində (60 saat) ümumi mikrobiologiya fənni tədris olunur.

Yaz semestrində isə Müalicə profilaktika fakültəsinin II kurs tələbələri üçün 5 kredit həcmində ümumi mikrobiologiya (70 saat), İctimai sağlamlıq fakültəsinin II kurs tələbələri üçün 5 kredit immunologiya və xüsusi mikrobiologiya (75 saat), Stomatologiya və Hərbi tibb fakültələrinin II kurs tələbələri üçün 4 kredit həcmində (60 saat) xüsusi mikrobiologiya, Əczaçılıq fakültəsinin I kurs tələbələri üçün 4 kredit həcmində (60 saat) ümumi mikrobiologiya fənni tədris edilir.

Bundan əlavə İctimai Səhiyyə fakültəsinin III kurs tələbələri üçün seçim fənni kimi "Biotexnologiya və gen mühəndisliyi" fənni də 3 kredit həcmində (45 saat) tədris edilir. Beləliklə universitetin bütün fakültəsinin tələbələri üçün Tibbi mikrobiologiya və

immunologiya kafedrasında 2 semestr, İctimai sağlamlıq fakültəsinin tələbələri üçün isə 4 semestr dərs keçirilir və hər semestrin sonunda imtahan verilir.

Universitetdə təhsil olan hərbi kursantlara, yəni feldşerlərə də yaz semestrində 42 saat mikrobiologiya fənni tədris edilir, sonda məqbul aparılır.

## ***TƏDRİS İŞİ***

Kafedranın tədris işi mühazirələrin oxunması, məşğələlərin aparılması, məsləhət saatlarının keçirilməsi, referat mövzularının qəbulu, tələbə elmi cəmiyyətindəki iş, tələbələrin tədris-tədqiqat işlərinin aparılması, açıq dərslərdə iştirak, dərslərə qarşılıqlı gediş və s. ibarətdir.

Kafedrada tədris prosesinin yüksək keyfiyyətini təmin etmək üçün yeni dərs ilinə hazırlıq işləri artıq 2016-cı ilin avqustundan başlamışdır. Bunun üçün dərs cədvəli vaxtında alınıb, uyğunlaşdırılıb, müəllimlər arasında bölünüb, tədris – təqvim planları tərtib olunub, proqramın bəzi hissələrinə yenidən baxılıb və bəzi əlavələr edilib, müəllimlərin fərdi iş planları tərtib edilmişdir. Müvafiq olaraq tədris hissəsinin maddi təchizatı üçün lazım olan reaktivlər, kimyəvi maddələr alınmış, qidalı mühitlər, zərdablar, vaksinlər, antibiotik diskləri, bakteriofaqlar və s. üçün sifarişlər tərtib olunmuşdur.

2016-cı ilin iyulunda yeni tədris ili üçün saatların hesabı alınmış və aşağıdakı qaydada bölüşdürülmüşdür:

| | Payız semestri | Yaz semestri | Cəmi |
|---|---|---|---|
| 1.Mühazirələr | 328 | 320 | 648 |
| 2.Təcrübi məşğələ | 4249 | 5040 | 9289 |
| 3.Məsləhət | 14 | 13 | 27 |
| 4.İmtahanlar | 378 | 394 | 772 |
| 5.İmtahan qabağı məsləhət | 50 | 51 | 101 |
| 6.Dissertantlara rəhbərlik | - | 102 | 102 |
| 7.Rezidentlərə rəhbərlik | 170 | 91 | 261 |
| Cəmi | 5226 | 6011 | 11237 |

İllik dərs yükü kafedranın işçiləri arasında yeni normativə əsasən bölünmüşdür. Belə ki, 19 müəllimə 500 saat, 7 nəfər müəllimə 250 saat dərs yükü verilmişdir (0,5 ştat). Aprel ayının 5 dən dosent Samir Sabir oğlu Cavadov 0,5 ştata keçmişdir. Bu normativə uyğun olaraq 11237 saat müəllimlər arasında bölünmüşdür.

***Tədris ilində cəmi 11086 saat dərs yükü yerinə yetirilmişdir.***

Qeyd edək ki, mühazirələr, yalnız professorlar və dosentlər tərəfindən oxunur.



Hər hansı bir əməkdaş işdə olmadıqda onun dərsləri azad müəllimlər tərəfindən aparılmışdır. Hesabat ili ərzində mühazirə və təcrübə dərslərinin pozulması halları olmamışdır.

2016-2017-ci tədris ili ərzində 91 saata qədər dərs bayramlara düşdüyünə görə yerinə yetirilməmişdir. Eləcə də Fidan Yılmaz 1 ay müddətində öz hesabına elmi məzuniyyət götürdüyündən 30 saat, baş müəllim Muradova Sevda 5 gün xəstə olduğundan 10 saat dərs yükü yerinə yetirməmişdirlər.

Hər bəhs üçün tədris proqramları hazırlanmışdır. Bu proqramların tədrisi sona çatdıqda imtahan aparılmışdır. Tələbələri imtahana yüksək səviyyədə hazırlaşdırmaq üçün imtahan sessiyası başlamazdan əvvəl əməkdaşlar tərəfindən aşağıdakı hazırlıq işləri aparılmışdır:

1. *Mühazirə oxuyan müəllimlərin məsləhət saatları təşkil olunmuşdur.*
2. *Məsləhət saatları keçirmək üçün növbətçi müəllim təyin olunmuşdur,*
3. *İmtahan sessiyası başlanmazdan hələ bir ay əvvəl imtahan testləri yenidən nəzərdən keçirilmiş, mikrobiologiya üzrə mərkəzi tədris metodik problem komissiyasının tərtib etdiyi suallar üzrə qurulmuş və innovasiyalar mərkəzinə verilmişdir. Tələbələri həmin suallarla tanış etmək üçün hələ bir ay əvvəl divardan asılmışdır.*
4. *Hesabat ili ərzində kafedra əməkdaşları dekanlıqlar tərəfindən təşkil olunmuş bütün istehsalat müşavirələrində iştirak etmiş və müvafiq naıticələr çıxarılmışdır.*

İmtahan testləri ayrı-ayrı fakultələrin tələbələri üçün (bütün fakultələrdə azərbaycan və rus dillərində, müalicə, stomatologiya, əczaçılıq fakultələrində isə həm də ingilis dilində) test komissiyası tərəfindən hazırlanmış (komissiyanın üzvləri: professorlar Qurbanov A.İ.,

Ağayeva E.M., N.A.Ağayeva, dosentlər Zeynalova S.Q, H.M.Əliyeva, S.F.Qurbanova, S.S.Cavadov ) və köhnə testlər yenidən nəzərdən keçirilmişdir.

Qış imtahan sesiyasında təməl mikrobiologiya və xüsusi mikrobiologiya bəhsindən bütün tələbələr Avropa Kredit sistemi üzrə imtahan vermişlər: İctimai səhiyyə fakültəsinin II kurs tələbələri Təməl mikrobiologiya və Mikologiya bəhsindən imtahan vermişlər.

Keçən illə müqayisədə qış imtahan sessiyasında bütün göstəricilərdə yaxşılığa doğru fərq görünür. Ən əsas ilkin mənimsəmə İctimai səhiyyə fakültəsinin II və III kurslarında, II müalicə profilakitka və Əczaçılıq fakültələrində 100% olmuşdur. Yüksək qiymətlərin sayı artmışdır. Bütün fakültələr üzrə cəmi 15 nəfər qeyri-kafi (F) qiymət almışdır. Əczaçılıq fakültəsində irəliləyiş daha çox nəzərə çarpır. Keyfiyyət göstəricisi 40%-dən 60%-ə qalxmışdır, İctimai səhiyyə fakültəsinin III kursunda keyfiyyət göstəricisi 88%-dən 93%-ə qalxmışdır.

I və II müalicə profilaktika fakultəsi Xüsusi mikrobiologiya bəhsindən imtahan vermişlər.

II kurs İctimai səhiyyə fakültəsi üzrə cəmi 80 tələbə imtahan vermişdir. İlkin mənimsəmə 100%, keyfiyyət göstəricisi 92% olmuşdur.

2016-2017-ci tədris ilində II kurs tibbi profilaktika fakültəsində ilkin mənimsəmə 89%-dən 96%-ə qalxmışdır.

Əczaçılıq fakültəsində 82 nəfər tələbə Xüsusi mikrobiologiya fənnindən imtahan vermişlər. İlkin mənimsəmə 100%, keyfiyyət göstəricisi 60% olmuşdur.

İctimai səhiyyə fakültəsinin III kursunda 77 nəfər tələbə Virusologiya və Kliniki mikrobiologiya bəhsindən imtahan vermişlər. İlkin mənimsəmə 100% və keyfiyyət göstəricisi 93% olmuşdur. Hərbi tibb fakultəsinin II kursunda ilkin mənimsəmə 95%, Stomatologiya fakultəsində isə 78% olmuşdur.

Beləliklə, qış imtahan sesiyasında 1103 tələbə imtahanda iştirak etmişdir. Tələbələrdən 305 nəfər “A” (əla) qiymət almışdır.

Ümumi göstəricilərin artması İctimai səhiyyə fakültəsinin II və III kurs və I və II müalicə-profilaktika və Əczaçılıq fakültələrinin tələbələrinin imtahanda yüksək qiymət almaları ilə əlaqədardır.

Ümumilikdə qış imtahan sessiyasında kafedrada ilkin mənimsəmə 91%, keyfiyyət göstəricisi 71% olmuşdur

***2016- 2017- ci tədris ilinin Qış imtahan sessiyasında fakultələr üzrə ümumi hesabat***

| Qruplar | Tələb. ümumi sayı | BALLAR | | | | | | İmt. bur. | İmt. gəl | İlkin mən. | Keyf. göstər. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | A | B | C | D | E | F | | | | |
| I müalicə-profilaktika | 312 | 90 | 78 | 65 | 30 | 19 | 1 | 9 | 38 | 99,8% | 74,4% |
| II müalicə profilaktika | 331 | 105 | 83 | 62 | 45 | 13 | 5 | 6 | 14 | 100% | 75% |
| Hərbi Tibb II kurs | 80 | 3 | 10 | 17 | 23 | 20 | 4 | - | 4 | 95% | 38% |
| İctimai səhiyyə II kurs | 80 | 42 | 23 | 9 | 4 | 1 | - | - | 1 | 100% | 92,5% |
| İctimai səhiyyə III kurs | 77 | 48 | 22 | 1 | 4 | - | - | 1 | 1 | 100% | 93,5% |
| Stomatologiya II kurs | 141 | 7 | 43 | 25 | 17 | 18 | 5 | 7 | 18 | 78% | 53% |
| Əczaçılıq II kurs | 82 | 10 | 22 | 18 | 15 | 5 | - | 7 | 5 | 100% | 60% |
| Cəmi | 1103 | 305 | 281 | 197 | 138 | 76 | 15 | 30 | 81 | 91% | 71% |

Yaz imtahan sessiyasında ayrı-ayrı fakültələr üzrə nəticələr belə olmuşdur:

II kurs stomatologiya fakültəsinin cəmi 139 tələbəsi imtahan vermişdir.

Fakültə üzrə göstəricilər aşağı düşmüşdür, beləki ilkin mənimsəmə 78%, keyfiyyət göstərici isə 49% olmuşdur. I müalicə profilaktika fakültəsinin cəmi 356 tələbəsi imtahan vermişdir.

Azərbaycan bölməsində ilkin mənimsəmə 91,6%, keyfiyyət göstəricisi 66% olmuşdur.

Rus bölməsində həm ilkin mənimsəmə 94%-ə, keyfiyyət göstəricisi 89%-ə enmişdir.

Cəmi fakultə üzrə ilkin mənimsəmə 91%, keyfiyyət göstəricisi isə 79% olmuşdur. Bu da keçən ilkinə nisbətən hər iki göstəricisinin səviyyəsinin azaldığını göstərir.

Yaz imtahan sesiyasında II müalicə profilaktika fakültəsinin cəmi 378 tələbəsi imtahan vermişdir.

İlkin mənimsəmə 92%, keyfiyyət göstəricisi isə 71% olmuşdur. Azərbaycan bölməsində ilkin mənimsəmə 95,5% olmuşdur.

Hərbi tibb fakültəsi üzrə 74 tələbə imtahan vermişdir - ilkin mənimsəmə 89% olmuşdur, keyfiyyət göstəricisi isə 33,9%-ə enmişdir. 1 nəfər də əla almamışdır.

Yaz semestrində I kurs əczaçılıq fakültəsinin cəmi 93 nəfər tələbəsi imtahanda iştirak etmişdir. Əczaşılıq fakültəsində imtahanlar "50+10" formatı ilə keçirilmişdir və bunun təsiri də özünü göstərmişdir. Belə ki, cəmi 1 tələbə "A" almışdır., 9 tələbə isə "F" almışdır. Bunların 6 nəfəri ingilis bölməsinin, 3 nəfəri isə azərbaycan bölməsinin payına düşmüşdür.

Azərbaycan bölməsində ilkin mənimsəmə 97%-ə, keyfiyyət göstəricisi isə 57%-ə qalxmışdır.

Rus bölməsində ilkin mənimsəmə 66,6%, keyfiyyət göstəricisi isə 60% olmuşdur.

İngilis bölməsində isə tam əksinə nəticə alınmışdır: ilkin mənimsəmə 60% olmuşdur, keyfiyyət göstəricisi isə 0% olmuşdur.

II kurs İctimai səhiyyə fakültəsinin cəmi 79 nəfər tələbəsi imtahanda iştirak etmişdir. İlkin mənimsəmə azərbaycan bölməsində 98%, keyfiyyət göstərici 76% olmuşdur, rus bölməsində isə həm ilkin mənimsəmə, həm də keyfiyyət göstəricisi 66,6% olmuşdur.

III kurs İctimai səhiyyə fakültəsində Biotexnologiya və gen mühəndisliyi fənnindən imtahanda cəmi 77 tələbə iştirak etmişdir. Qeyri-kafi alan olmamışdır. İlkin mənimsəmə azərbaycan bölməsində 100% olmuşdur, keyfiyyət göstəricisi isə 98%-ə qalxmışdır. Rus bölməsində ilkin mənimsəmə 85% olmuşdur, keyfiyyət göstəricisi isə 57%-ə enmişdir. Hətta azərbaycan bölməsinin 617a qrupunda olan 11 tələbənin hamısı "A" almışdır. Ümimilkidə fakültə üzrə ilkin mənimsəmə 98%, keyfiyyət göstərici 94% omuşdur.

***2016 - 2017–ci tədris ilinin <u>Yaz imtahan sesiyasında</u> fakultələr üzrə ümumi hesabat***

| *Fakultələr* | *Tələbələrin sayı* | *BALLAR* | | | | | | *Bura xilmayan* | *Gəlmədi* | *Ilkin mənimsəmə* | *Keyfiyyet göstəricisi* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *A* | *B* | *C* | *D* | *E* | *F* | | | | |
| *I müalicə profilaktika* | *356* | *108* | *99* | *49* | *43* | *14* | *7* | *9* | *12* | *91%* | *79%* |
| *II müalicə profilaktika* | *378* | *120* | *86* | *67* | *46* | *14* | *3* | *3* | *23* | *92%* | *71%* |
| *Hərbi tibb* | *74* | - | *9* | *16* | *24* | *14* | *5* | - | *3* | *89%* | *33,9%* |
| *İctimai səhiyyə II kurs* | 79 | 24 | 25 | 11 | 9 | 3 | 1 | 1 | 5 | 94% | 77% |
| *İctimai səhiyyə III kurs (biotexnologiya)* | 77 | 48 | 22 | 3 | 3 | - | - | 1 | - | 98% | 94% |
| *Stomatologiya* | 139 | 12 | 25 | 28 | 24 | 19 | 1 | 15 | 15 | 78% | 49% |
| *Əczaçılıq* | 93 | 1 | 13 | 32 | 26 | 12 | 9 | - | - | 90% | 49% |
| *Cəmi* | 1196 | 313 | 279 | 206 | 175 | 91 | 26 | 29 | 58 | 91% | 67% |

Cəmi yaz imtahan sesiyasında 1196 tələbə iştirak etmişdir - ilkin mənimsəmə faizi 91%, keyfiyyət göstəricisi 67%) olmuşdur

Keyfiyyət göstəricisində dəyişiklik olmuşdur. Belə ki, *İctimai səhiyyə* fakültəsinin III kursunda 87%-dən 94%-ə qalxmışdır. Eləcə də əczaçılıq fakültəində keyfiyyət göstəricisi 94% olaraq qalmışdır.

Ümumilikdə mikrobiologiya kafedrasında yaz imtahan sesiyasında ilkin mənimsəmə 91% olmuşdur.

Tədris ili ərzində kafedrada müəyyən işlər aparılıb. Belə ki, bütün fakültələr üzrə mühazirələrin elektron varinatları təkmilləşdirilmiş, həmin materiallarda ən müasir və tələbələrin mənimsəyə biləcəyi illyustrasiyalar, şəkillər və animasiyalar öz əksini tapmışdır (azərbaycan, rus və ingilis dillərində). Bundan əlavə kafedranın 6 və 8 saylı tədris laboratoriyalarında universitet rəhbərliyinin qərarı ilə müəllim və tələbələrin istifadəsi üçün quraşdırılan fərdi kompyuterlərdən də səmərəli istifadə olunmuşdur. Belə ki, praktik məşğələ dərsinin nəzəri hissəsinə dair məlumatlar, həmçinin mikrobioloji diaqnostikada tətbiq olunan müasir, laborator testlərə dair bilgi, rəngli illyustrasiya və animasiyalardan ibarət slaydlar hazırlanmışdır. Bu məlumatlar bazasından dərsin gedişində və dərsdən kənar məşğələlərdə, məsləhət saatlarında, tələbələrin istifadəsi tam sərbəst olmuşdur.

Kafedra nəzdində fəaliyyət göstərən Klinik Mikrobioloji laboratoriyanın gücündən istifadə etməklə praktik məşğələ dərslərinin bütün növ patoloji materiallarla təhcizatı təmin olunmuş, onların klinik laborator vərdişlərə yiyələnməsinə xüsusi diqqət verilmişdir.

Bütün bunlarla yanaşı kafedrada rezidenturada təhsil alan və rotasiyaya gələn tələbələrlə də mühüm işlər aparılmışdır. Kafedranın nəzdində olan laboratoriyada bu tələbələrlə həm mühazirə, həm də təcrübə dərsləri aparılmışdır.

2016-2017-ci tədris ilində Mikrobiologiya və immunologiya kafedrasında 12 rezident olmuşdur. Bunların 10 nəfəri II kursda, 2 nəfəri I kursda təhsil almışdır.

Rezidentlərlə 261 saat dərs yükü yerinə yetirilmişdir: 20 saat mühazirə, 241 saat məşğələ.

Eləcə də 2016-2017-ci tədris ilində kafedrada 80 nəfər rezident müxtəlif ixtisaslar üzrə (stomatoloq, laboratoriya işi, onkoloq, epidemioloq, otorinolorinqoloq, infeksionist, gigyenist və s.) rotasiya keçmişdir.

Tədrisin keyfiyyətini yaxşılaşdırmaq və yüksək keyfiyyət göstəriciləri əldə etmık üçün açıq testlərdən istifadə etmək qərara alınmışdır. Hər tədris ilində aşıq testlərin artırılması məqsədə uyğundur. Çünki tələbələr çalışacaq ki, semestr ərzində nisbətən yüksək ballar toplasınlar.

## TƏDRİS - METODİK İŞ

Tədris ilinin əvvəlində *2016–2017–ci* tədris ili üçün tədris metodik işlər üzrə kafedranın planı tərtib və təsdiq olunmuşdur ki, bunun da əsasında kafedra əməkdaşlarının fərdi iş planı tutulmuşdur. Kafedranın iş planı yerinə yetirilmişdir.

Hər semestrin birinci dərsində bütün tələbələr fənnin proqramı ilə təmin olunur. Həmin proqramda ümumi proqramdan başqa semestrin təqvim-mövzu planı, Müalicə profilaktika və İctimai səhiyyə fakültələrində bacarıqların siyahısı da verilir. 2-ci həftədə isə mühazirə müəllimləri bir qayda olaraq sərbəst mövzuları qruplarda paylayır (hər tələbəyə 10 sual). Təxminən 1-2 ay ərzində tələbə bu mövzunu mətnlə, sxemlərlə, şəkillərlə hazırlayır və müəllimə təhvil verir. Müəllim sərbəst işi yoxlayır, bəyənirsə bal yazır, bəyənmirsə yüngülcə sorğu aparır (təyin edilmiş vaxtda).

Hər müəllimdə kitabça şəklində tələbələrə verilən proqram, həm də sillabus vardır. Hər dərsdə hansı suallar veriləcəksə tələbə əvvəlcədən bunu bilir və hazırlaşır.

Hazırda kafedrada qış və yaz imtahanlarını keçirmək üçün 3000 testdən ibarət (hər üç dildə: Azərbaycan, rus, ingilis dillərində) test bankı yaradılıb, bundan əlavə kafedranın professorları A.İ.Qurbanov, E.M.Ağayeva, N.A.Ağayeva, dosent H.M.Əliyeva tərəfindən lazımi sayda açıq testlər hazırlanmışdır və buna uyğun olaraq “Mikrobiologiya və immunologiyadan testlər” adlı kitab-dərs vəsaiti nəşr olunmuşdur (azərbaycan, rus və ingilis dillərində). Hazırda kafedrada “50+10” və “100+20” formatında testlərin işlənməsi yekunlaşdırılır.

Kafedranın əməkdaşı dosent S.S.Cavadov bunkerdə olmuşdur.

İmtahan testlərinin hazırlanmasında, tərcümə edilməsində və çap edilməsində kafedranın əksər əməkdaşları iştirak etmişdir.

Kafedrada tədris prosesinin təkminləşdirilməsi üçün və tələbələrin proqramı yaxşı mənimsəmələri üçün İctimai səhiyyə və müalicə-profilaktika fakültəsinin tələbələri üçün hər semestr üzrə 10 dənə bacarıq sualları hazırlanmışdır (professor A.İ.Qurbanov. dosent

S.Q.Zeynalova). Bacarıqların siyahısı əvvəlcədən proqram ilə birlikdə tələbələrə verilir. Bundan əlavə, bacarıq sualları elə seçilmişdir ki. 1 qoşa saat ərzində bütün tələbələr onu yerinə yetirə bilir, bəzən isə cədvəl üzrə interpritasiya aparılır. Uyğun olan dərslərdə hər tələbənin bacarığı yoxlanılmış və balları qeyd edilmişdir.

Kafedrada yeni dərs proqramı hazırlanmışdır (Professor Qurbanov A.İ., professor Qədirova H.Ə., dosent Zeynalova S.Q., baş müəllim Muradova S.A.). Eləcə də seçim fənni kimi götürülmüş "Biotexnologiya və gen mühəndisliyi üzrə" professor E.M.Ağayevanın rəhbərliyi altında yeni proqram hazırlanmışdır.

Hesabat ili ərzində 5 açıq mühazirə və 7 açıq təcrübə dərsi aparılmışdır.

**2016-2017-ci tədris ilinin _**PAYIZ**_ semestrinə dair Mikrobiologiya və immunologiya kafedrası üzrə açıq dərslərin cədvəli**

| № | Vəzifəsi, S.A.A | **Mühazirənin mövzusu** | Qrup<br>№-si | Tarix<br>Saat |
|---|---|---|---|---|
| 1 | Professor<br>Qədirova H.Ə. | Patogen spiroxetlər, rikketsiyalar, xlamidiyalar və mikoplazmalar | 255a-256b | 12.10.16<br>08.30 |
| 2 | Dosent<br>Cavadov S.S. | Enterobacteriaceae fəsiləsi (Escherichia, Shigella, Salmonella cinsləri). Vibrio, Campylobacter və Helicobacter cinsləri | 44b-47a | 07.11.16<br>12.30 |
| 3 | Dosent<br>Şxəliyev F.M. | İnsanın immun çatışmazlıq virusları. Onkogen viruslar | 616a-618b | 13.12.16<br>12.30 |
| | | **Praktik məşğələnin mövzusu** | | |
| 1 | Baş müəllim<br>Talıbova C.X. | Difteriya və göy öskürəyinin mikrobioloji diaqnostikası | 240b | 17.10.16<br>08.30 |
| 2 | Assistent<br>Hacıyev Y.V. | Bağırsaq və urogenital parazitar infeksiyaların (amebiaz, balantidiaz, qiardioz, trixomoniaz) mikrobioloji diaqnostikası | 42a | 30.11.16<br>14.30 |
| 3 | Baş müəllim<br>Mansurova H.T. | Sidik –cinsi yolların infeksiyalarının mikrobiologiyası və diaqnostika prinsipləri | 617a | 02.12.16<br>10.30 |

**2016-2017-ci tədris ilinin *YAZ* semestrinə dair Mikrobiologiya və immunologiya kafedrası üzrə açıq dərslərin cədvəli**

| № | Vəzifəsi, S.A.A | Mühazirənin mövzusu | Qrup №-si | Tarix Saat |
|---|---|---|---|---|
| 1 | Dosent V.Ə.Nərimanov | Mikroorqanizmlərin ekologiyası. Dərman xammaların və hazır dərman formalarının mikroflorası | 800a-802b | 2 may 2017-ci il |
| 2 | Professor N.A.Ağayeva | Xarici mühit amillərinin (fiziki, kimyəvi və bioloji) mikroorqanizmlərə təsiri. Kimyəvi terapiyanın əsasları. Antibiotiklər. Bakteriofaqlar | 1a-3b | 03 may 2017-ci il |
| | | **Praktik məşğələnin mövzusu** | | |
| 1 | Dosent S.F.Qurbanova | Mikroorqanizmlərin metabolizmi, qidalanma xüsusiyyətləri. Fiziki və kimyəvi amillərin mikroorqanizmlərə təsiri. Sterilizasiya və dezinfeksiya | 5a | 17 mart 2017-ci il |
| 2 | Baş müəllim R.S.Bayramova | İnfeksiya. Laborator heyvanların yoluxdurulması. Patogenlik və virulentliyin təyini | 210a | 28 aprel 2017-ci il |
| 3 | Baş müəllim S.A.Muradova | Antigenlər və anticisimlər. Seroloji reaksiyalar, onların mikrobioloji diaqnostikada tətbiqi. Aqqlütinasiya reaksiyası və onun variantları (təxmini və geniş). | 204a | 25 aprel 2017-ci il |
| 4 | Baş müəllim S.V.Hacıyeva | Qarın yatalağı və salmonellozların mikrobioloji diaqnostikası | 626a | 07 aprel 2017-ci il |

Keçirilmiş açıq dərslər kafedranın iclaslarında hər tərəfli və tənqidi müzakirə edilmişdir. Bu müzakirələrin protokollarından çıxarışlar hesabata əlavə olunaraq dekanlığa verilmişdir.

Bundan əlavə, kafedranın təsdiq olunmuş iş planına uyğun olaraq kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə olunmuşdur: dərs otaqlarının attestasiyası, dərs yükünün bölünməsi və paylanması, illik planın təsdiqi, açıq dərslərin cədvəlinin hazırlanması və təsdiqi, bir sıra dissertasiya işlərinin mövzu planının təsdiqi, elmi hesabatların dinlənilməsi, testlərin hazırlanma vəziyyəti, jurnalların düzgün doldurulma məsələləri, 8 həftəlik və 15 həftəlik məlumat vərəqlərinin doldurulması və onun müzakirəsi, yeni metodkomissiyanın tərkibinin təsdiqi, elmi məqalələrin müzakirəsi, tələbə jurnallarının doldurulmasına nəzarət məsələsi, açıq dərslərin müzakirəsi, yaz semestrinə hazırlıq və qış imtahan sessiyasının nəticələrinin müzakirəsi, yaz semestri üçün dərs yükünün bölüşdürülməsi və təsdiqi, yeni dərslik və dərs vəsaitlərinin müzakirəsi, eləcə də əksər iclaslarda nizam-intizam məsələləri,

tədrisin keyfiyyətinin artırılması, yenidən vəzifəyə seçilmə məsələləri və s. vaxtaşırı müzakirə olunmuşdur.

Tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün təcrübəli müəllimlərin apardığı praktiki məşğələlərdə və mühazirələrdə gənc müəllimlər də iştirak edirlər.

Kafedrada hər fakültənin tələbələri üçün müəllimlərin iştirakı ilə tədris-işçi planı (sillabuslar ) hazırlanmış və təkmilləşdirilmişdir.

Kafedra lazımi texniki və əyani vəsaitlə təmin olunmuşdur. Kafedramızda fəaliyyət göstərən laboratoriyaların işi təkmilləşdirilmiş, bəzi yeni avadanlıqlar alınmışdır. Bütün tədris otaqları binokulyar mikroskoplarla təmin olunmuşdur. Yeni əyani vəsaitlər işlənilib hazırlanmışdır.

Yüksək səviyyəli dərs proseslərini təmin etmək üçün, tələbələrin, aspirantların, dissertantların və doktorantların elmi işlərinin aparılması üçün onların müxtəlif reaktiv, qidalı mühitlərlə təjhiz olunmasına ciddi fikir verilir.

## ***ELMİ-TƏDQİQAT İŞLƏRİ***

2016-2017-ci tədris ili üçün Mikrobiologiya və immunologiya kafedrasında ***"Sidik – cinsiyyət sistemi infeksiyalarının etiopatogenetik xüsusiyyətləri, diaqnostika və müalicə prinsiplərinin təkmilləşdirilməsi"*** mövzusunda elmi tədqiqat işinin planı çərçivəsində görülən işlər davam etdirilmişdir. Hesabat ili ərzində kafedranın elmi tədqiqat işinin planınıa uyğun olaraq tədqiqat işləri müxtəlif istiqamətlərdə aparılmışdır

Hesabat dövründə kafedranın kollektivi planda nəzərdə tutulmuş mövzulara görə tədqiqat işlərini davam etmişlər. Hesabat ili ərzində ***72*** elmi məqalə nəşr olunmuşdur.

| Elmi tədqiqat işi | Dissertasiya işi (m, y/y) | | Məqalə (d-, x-, c-) | | Monoqrafiya | Metodik tövsiyyələr | Rəy | Konfrasn iştirakçıları/çıxış | TEC (məruzə) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Elmlər doktoru | Fəlsəfə doktoru | Çap edilib | Göndərilib | | | | | |
| | - | 1 - m | | **20** | - | 4 | 35 | 27 | 3 |
| | 5 - y/y | 9 - y/y | **15-x** | **8-x** | | | | | |
| | | | **18-j** | **-** | | | | | |
| | | | **57-d** | **12-d** | | | | | |
| Cəmi | | | **72** | **20** | | | | | |

*Qeyd: Məqalələri mötərizədə göstərməli: (d-, x-, j-) yəni nəşr edilib: daxildə - Azərbaycanda, x- xaricdə, j-jurnalda. (m-müdafiə edilib, y/y-yerinə yetirilir)*

## *ELMİ TƏDQİQAT İŞLƏRİ*

Ümumilikdə kafedrada son 10 ildə 4 elmlər doktoru və 12 fəlsəfə doktoru hazırlanmışdır. Bundan əlavə kafedrada 5 doktorluq dissertasiyası və 2 namizədlik dissertasiyası tamamlanmaq üzrədir.

Hazırda kafedrada rəsmi doktoranturaya qəbul olunan 1 elmlər doktoru, 2 doktorant fəlsəfə doktoru, 4 dissertant elmi tədqiqat işlərini yerinə yetirirlər. Onların elmi rəhbərliyini professor M.H.Əliyev (2 dissertant ), professor A.İ.Qurbanov, professor H.Ə.Qədirova, professor E.M.Ağayeva, dosent S.S.Cavadov həyata keçirir.

2016-2017-ci tədris ilində 1 fəlsəfə doktorunun rəsmi müdafiəsi keçirilib.

Bu il Səhiyyə Nazirliyi doktoranturaya və dissertanturaya hərəsinə 2 yer ayırıb.

## *Tələbə Elmi Cəmiyətinin işi üzrə*

***2016/2017-ci*** tədris ili ərzində kafedra, fakultə və Universitetin Tələbə Elmi Cəmiyyətinin işi üzrə dosent, t.ü.f.d. S.S.Cavadovun rəhbərliyilə TEC xətti ilə 1 tələbə tədqiqat işi üzərində işləyib, Universitetin 2017-ci ilin yekun konfrasında məruzə edilmiş və diploma layiq görülmüşdür: Rəhimova Səlimə III kurs, qrup 295c – "Vaginal ifrazatın mikroskopik müayinəsi ilə kultivasiya arasında korrelyasiyanın öyrənilməsi".

Tələbə Elmi Cəmiyyətinin Konfransında Professor Emma Müzəffər qızı Ağayevanın rəhbərliyi ilə Bayramova Dunya və Məhərrəmova Gülərin "Дисбиоз кожи" mövzusunda hazırladıqları elmi iş diploma layiq görülmüşdür.

14.04.2017-ci il tarixində keçirilən Tələbə Elmi Cəmiyyətinin Konfransında fəal iştirakına görə Emma Müzəffər qızı Ağayeva Diplomla təltif olunmuşdur.

## *SƏHIYYƏ MÜƏSISƏLƏRINƏ ELMI-TƏCRÜBI KÖMƏK*

Məlum olduğu kimi, кафедранын няздиндя «Клиник микробиолоjи лабораторийа» фяалиййят эюстярир. Laboratoriyada dos. Bayramov A.Q., prof. Qurbanov A.İ., dos. Nərimanov V.Ə. və S.S.Cavadov fəaliyyət göstərir. Eyni zamanda kafedranın əməkdaşı Y.V.Hacıyev ATU-nun Tədris – Cərrahiyyə korpusunun mərkəzi laboratoriya şöbəsində müdir işləyir. Щесабат дюврцндя hər iki лабораторийада 400 хястянин мцхтялиф

клиник материаллары микробиолоъи мцайиня едилмиш вя бу барядя мцалися щякимляриня мцвафиг мяслящятляр верилмишдир.

Elmlər Akademiyasının mikrobiologiya şöbəsi ilə birlikdə yeni sintez olunmuş 25 kimyəvi maddələrin antimikrob təsiri öyrənilmişdir.

Professor E.M.Ağayeva AMEA-nın Botanika İnstitutunun biotexnologiya laboratoriyası ilə birgə elmi tədqiqat işi aparır. Onun rəhbərliyi altında 3 dissertasiya işi yerinə yetirilir.

Kafedranın baş müəllimləri C.X.Talıbova və M.S.Novruzova Bakı şəhər Uşaq Bərpa müalicə mərkəzi ilə sıx əlaqə saxlayaraq, pediatrik və otolorinqologiya xəstəliklərinin mikrobioloji və immunoloji diaqnostikasının aparılmasında iştirak etmişlər. Kafedranın nəzdindəki laboratoriyada S.Q.Zeynalova, N.A.Ağayeva və S.A. Muradova tərəfindən 45-ə qədər irinli-iltihabi prosesli xəstə müayinə olunmuş, antibiotikoqramma təyin edilmişdir. Beləliklə də, onlar həkimlərin apardığı müalicə tədbirlərinin daha effektiv olmasına kömək etmişlər.

Hesabat dövründə kafedranın professoru H.Ə.Qədirova Səhiyyə Nazirliyinin nəzdində yaradılan "B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə" Komissiyanın üzvü olaraq, müraciət edən xəstələrin qəbulunda, onlara diaqnostika və müalicə təyinati ilə bağlı müzakirələrdə iştirak etmiş, kütləvi-informasiya vasitələrində əhaliyə dəfələrlə viruslu hepatitlər haqqında məlumat vermişdir.

Kafedranın əksər işçiləri ictimai işlərdə çalışırlar.

Prof. Z.Ö.Qarayev, prof. E.M.Ağayeva, prof. A.İ.Qurbanov və prof. G.M.Seyidova Tibbi profilaktika və Tibbi biologiya fakultəsinin Elmi Şurasının üzvləri olmuşdur. Hazırda isə Prof. Z.Ö.Qarayev, prof. N.A.Ağayeva, prof. M.H.Əliyev, dos. H.M.Əliyeva İctimai Səhiyyə fakültəsinin Elmi Şurasının üzvləridir. Prof. Z.Ö.Qarayev, «Mikrobiologiya, epidemiologiya və gigiyena» üzrə Dissertasiya Şurasının sədridir. Professorlar E.M.Ağayeva, M.H.Əliyev və H.Ə.Qədirova «Mikrobiologiya, epidemiologiya və gigiyena» üzrə Dissertasiya Şurasının üzvləridir. Professor A.İ.Qurbanov Universitet Tədris Metodik və İnnovasiya şöbəsinin müdiridir, AAK-ın ekspert şurasının üzvüdür. Professor N.A.Ağayeva Approbasiya Şurasının sədr müavinidir, eləcə də ATU-nun İlkin materialların yoxlama komissiyasının üzvüdür. Dosentlər S.Q.Zeynalova, V.Ə.Nərimanov, S.F.Qurbanova və S.S.Cavadov Approbasiya Şurasının üzvləridirlər. Dosent R.B.Bayramlı "Caspian

İnternashinal Hospital"ın baş direktoru olmuş və hazırda Talasemiya mərkəzinin elmi işlər üzrə direktor müavinidir. Dosent S.S.Cavadov ATU-nun Doktorantura şöbəsinin müdiri olmuşdur, hazırda isə universitet Tədris hissə müdiri vəzifəsində çalışır, kafedranın elmi işlər üzrə rəhbəri,Tələbə Elmi Cəmiyyətinin sədri olmuş. Hal-hazırda bu vəzifəni dos. S.F.Qurbanova isra edir. Ba. müəllim Y.V.Hacıyev ATU-nun Tədris-cərrahiyyə korpusunun Mərkəzi laboratoriya şöbəsinin müdiridir. Professorlar E.M.Ağayeva və N.A.Ağayeva universitetin Həmkarlar İttifaqı Komitəsinin üzvləridir. Professor N.A.Ağayeva kafedra Həmkarlar Təşkilatının sədridir. Baş müəllim S.V.Hacıyeva həm universitetin Həmkarlar İttifaqı Komitəsinin və Həmkarlar İttifaqı Rəyasət Heyətinin üzvü, həm də kafedra Həmkarlar Təşkilatının üzvüdür. Professor H.Ə.Qədirova Ağciyər Xəstəlikləri Elmi Tədqiqat İnstitutunun direktorudur, 2017-ci ildən ATU-nun nəzdində olan Mikrobiologiya, epidemiologiya və gigiyena üzrə FD 03.014 Dissertasiya şurasının üzvü kimi iclaslarda iştirak etmişdir. O, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Surasının sədr müavini kimi fəaliyyət göstərir. Baş müəllim C.X.Talıbova Bakı şəhəri Uşaq Bərpa Mərkəzinin baş həkimidir.

## ***ELMİ-PEDAQOJİ İŞÇİLƏRİN QURULTAY, KONFRANS VƏ SİMPOZİUMLARIN İŞİNDƏ İŞTİRAKI***

Kafedranın bir slra əməkdaşları 2016-2017-ci illərdə seminar və konqreslərdə iştirak etmişlər.

Dosentlər S.S.Cavadov, H.M.Əliyeva, professorlar G.M.Seyidova, A.İ.Qurbanovun "**MEDICAL MICROBIOLOGY AND IMMUNOLOGY/ *Laboratory manual in general microbiology***" adlı dərsliyinin yazılması bitmişdir, Səhiyyə və Təhsil Nazirliyinin Kollegiyasında təsdiqlənmişdir.

S.S.Cavadovun iştirak etdiyi seminar və konqreslər S.S.Cavadovun iştirak etdiyi seminar və konqreslər:

1. Bakı Beynəlxalq tibb sərgisi -19.09.2016, Bakı
2. "Tibbi Mikoloji" kursu – 13-15.10. 2016, Bursa, Türkiyə
3. BİMEC konfransı, 3.11.2016, Bakı
4. Fakultə TEC-nin konfransı –13-14.04.2017

5. Rezidentlərin elmi praktik konfransı (ATUREK4) - 13-14may 2017, Bakı
6. Web of science" portalının təşkil etdiyi elmi məqalə yazılma qaydasına aid seminarda iştirak, 04.05. 2017

Kafedra əməkdaşları (professor N.A.Ağayeva, dosentlər V.Ə.Nərimanov, H.M.Əliyeva, assistent F.O.Yılmaz) 22-25 Aprel, 2017-ci ildə Venada (Avstriya) Kliniki Mikrobioloji və İnfeksion Xəstəliklər (ECCMİD)-in düzənlədiyi 27$^{th}$ Auropean Congress Clinical Microbiology and İnfections Diseases – konqresdə posterlə iştirak etmişlər.

Professor N.A.Ağayeva 21 mart 2017-ci ildə Moskva şəhərində keçirilən "Krokus Ekspo" Mərkəzində klinik laborator diaqnostik aparatların sərgisində iştirak etmişdir.

Professor N.A.Ağayeva Sağlıq bilimləri Universitesi: Şişli Hamidiye Etfal Egitim və Araşdırma Hastanesində, Tibbi mikrobioloji və molekulyar genetik laboratoriyada "Aktinomikotik mənşəli infeksiyaların insan patologiyasında rolu" mövzusunda 02.07.2016 tarixində məruzə ilə çıxış etmişdir. N.A.Ağayeva N- M16K0627-li Sertifikata (Национальная Академия Микологии Общероссийская общественная организация, Москва, 14 апрель,2016) layiq görülmüşdür, 20-23 mart, Moskva şəhəri, «XXII Всероссийская научно-практическая конференция с международным участием», «Теория и практика Клинической Лабораторной диагностики», konfransında iştirak etmişdir. Eyni zamanda "Tibbi laborator federasiyası "nın keçirdiyi Master Klassda 701/2303-17 N-li Şəhadətnamə ilə (18 kredit) təltif edilmişdir